## Heydər Babaya Salam
## Məhəmməd Hüseyn Şəhriyar

Heydər Baba, ildırımlar şaxanda,
Sellər, sular şaqqıldayıb, axanda,
Qızlar ona səf bağlayıb baxanda,
Salam olsun şövkətizə elizə.
Mənim də bir adım gəlsin dilizə.

Heydər Baba, kəkliklərin uçanda,
Kol dibindən dovşan qalxıb, qaçanda,
Baxçaların çiçəklənib, açanda,
Bizdən də bir mümkün olsa yad eylə,
Açılmayan ürəkləri şad elə.

Bayram yeli çardaxları yıxanda,
Novruz günü, qar çiçəyi çıxanda,
Ağ buludlar köynəklərin sıxanda
Bizdən də bir yad eyləyən sağ olusn,
Dərdlərimiz qoy dikəlsin, dağ olsun.

Heydər Baba, gün dalını dağlasın,
Üzün gülsün, bulağların ağlasın,
Uşaqların bir dəstə gül bağlasın,
Yel gələndə ver gətirsin bu yana,
Bəlkə mənim yatmış bəxtim oyana.

Heydər Baba, sənin üzün ağ olsun,
Dörd bir yanın bulaq olsun, bağ olsun,
Dünya qəzov-qədər, ölüm-itimdi,
Dünya boyu oğulsuzdu yetimdi…

Heydər Baba, yolum səndən kəc oldu,
Ömrüm keçdi, gələmmədim gec oldu,
Heç, bilmədim gözəllərin necə oldu,
Bilməz idim döngələr var, dönüm var,
İtginlik var, ayrılıq var, ölüm var.

---

Veb direktor: Betti Bleyer
Mətni yığdı: Nərgiz Abadi
Yoxladı və veb üçün hazırladı: Aydan Nəcəfova
AZERİ.org-a qoyuldu: Fevral 2005